

SABİR ABDİN

## İNTİHAR XƏBƏRİ DÖYÜR QAPIMI...

*İntihar mövsümü bitəcək əlbət,*
*Güllər də solacaq qəbrimin üstə.*
*Göylərin sonuncu mərtəbəsindən*
*Qorxma, at özünü səbrimin üstə.*

*Kəramət*

İntihar xəbəri döyür qapımı...
Sızlayır ürəklər hər axşam-səhər.
Saralır göy otlar, solur çiçəklər,
Hər yanı dolaşır bir acı xəbər...

İntihar - dünyanın sonu görünür...
Allahın üzünə ağ olur insan.
Cana qəsd eləmək günahdır bilin,
Axı, hamı üçün doğulur insan.

Kimisi ağacdan asır özünü,
Kimisi bir güllə çaxır başına.
Biri hündür yerdən atır özünü,
Dözməyir həyatla öz savaşına...

Biri pəncərədən, biri qapıdan
Bir göz qırpımında özünü asır.
Özü-öz əliylə tutub əcəli
Sızlayan köksünün üstünə basır...

Dünyaya gələndən gor evinədək,
Yorulmaq bilmədən çalışır insan.
Çoxları yaşayır bir arı ömrü,
Bir anda közərib, alışır insan.

Hamı günahkardır, mən də içində...
İntihara yox deyək, oyanaq, bəsdi
İnsandır dünyanın nuru, işığı
Vaxtında qoruyaq, sevək hər kəsi.

## BU DÜNYANI QARA GÖRDÜN

(Bir nadana)

*Arxalıya arxa olma*
*Deyərlər ki, yamaqsan.*
*Arxasıza arxa ol ki,*
*Qoy desinlər dayaqsan.*

*Səməd Vurğun*

Sən ömründə bir kitabdan
Beş-üç sətir oxumadın.
Əldən-ətəkdən yapışıb,
Kölgəsinə döndün yadın.

Arxasızı tapdalayıb,
Arxalıya yarınmısan.
Ağlar qoyub günahsızı,
Yamanlıqdan barınmısan.

Özündən varmı xəbərin,
Əyilmisən, bükülmüsən.
İşıq düşəndə üstünə
Qaranlığa çəkilmisən.

Qaranlıqlar sökülləndə,
Bu dünyanı qara gördün.
Ömrün boyu yorulmadan,
Sən işığa çəpər hördün.

Xəbislik fitnən-fəsadın,
Qəlb sızladır əməllərin.
Yaxşıların ayağından
Həmişə dartıb əllərin...

Yaltaqlıq sevimli peşən,
Üz qarasıdır xislətin.
Yalan tavanın-çətirin,
Qalmayıb həyan-ismətin.

Gözdən salmısan özünü,
Əyri işin gəlməz saya.
Bəlkə də sən şeytan kimi
Göz açmısan bu dünyaya.

## MƏN BİLMİRƏM HARA GEDİM?

Kitabımı oxuyan yox,
Çiçəyimi qoxuyan yox,
Göz yaşımı toxuyan yox,
Mən bilmirəm hara gedim?

Ağaclara sarılmışam,
Yarpaq kimi saralmışam,
Kor olmuşam, kar olmuşam
Mən bilmirəm hara gedim?

Bu dünyanı bölən kimdi?
Ağa kimdi, kölə kimdi?
Suçlu kimdi, ölən kimdi?
Mən bilmirəm hara gedim?

Qapım bağlı, yolum bağlı,
Əlim bağlı, qolum bağlı,
Sağım zülmət, solum bağlı
Mən bilmirəm hara gedim?

Arxasıza yiyə yoxdu,
Arxalıya yiyə çoxdu,
Toxlar acdı, aclar toxdu
Mən bilmirəm hara gedim?

Məni ancaq külək tapar,
Hara getsəm ora çapar,
Nəyim varsa külək, apar...
Mən bilmirəm hara gedim?